UOT 32:93/94

KƏMALƏ HƏSƏNOVA
Azərbaycan Dillər Universitetinin
Beynəlxalq münasibətlər kafedrasının müəllimi,
tarix üzrə fəlsəfə doktoru
kamala.hasanova.02@mail.ru

AVROPA İTTİFAQI – AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNDƏ ENERJİ AMİLİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/107-112

Məqalədə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində rolu, bu istiqamətdə yaranan strateji tərəfdaşlıq münasibətləri araşdırılmışdır. Müəllif Avropa İttifaqı ilə Azərbaycanın enerji sahəsində əlaqələrini zəruri edən şərtləri təhlil etmiş, regional enerji təhlükəsizliyinin təmin edilməsində Cənub Qaz Dəhlizinin həyata keçirilməsinin əhəmiyyəti və bərpa olunan enerji, yaşıl enerji sahəsində tərəflərarası münasibətlərin perspektivləri araşdırılmışdır.

Açar sözlər: Avropa İttifaqı, Azərbaycan, enerji təhlükəsizlyi, bərpa olunan enerji, Cənub Qaz Dəhlizi, strateji tərəfdaşlıq.

Giriş. Müasir dövlətlərarası münasibətlərdə iqtisadi maraqlar, enerji təhlükəsizliyi məsələləri beynəlxalq əlaqələrə mühüm təsir göstərir. Enerji təhlükəsizliyi hasilatçı və istehlakçı ölkələr üçün fərqli komponentləri ehtiva edir. Hasilatçı ölkələr üçün bu davamlı və fasiləsiz olaraq enerji təchizatıdırsa, istehlakçılar üçün sabit enerji qiymətlərinin təmin olunmasıdır. Dünyada geosiyasi proseslərə təsir edən əsas faktorlardan biri enerji və karbohidrogen ehtiyatlarının təhlükəsiz yollarla dünya bazarlarına çatdırılmasıdır. Dünyada enerji böhranlarının baş verməsi həm beynəlxalq münasibətlərə, həm də enerji qiymətlərinə təsir göstərmiş, böyük karbohidrogen resurslara malik olan dövlətlər enerjidən bir növ siyasi təzyiq və güc vasitəsi olaraq istifadə etmişdir. Müasir mərhələdə dünyada iqlim dəyişmələrinin baş verməsi və Rusiyadan enerji asılılığının aradan qaldırılması zərurəti ekoloji baxımdan daha təmiz bərpa olunan enerji mənbələrindən istifadəni şərtləndirmişdir. Bu baxımdan böhranların, müharibələrin baş verdiyi bir şəraitdə Azərbaycanın Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyində artan rolunun tədqiq edilməsi aktualdır.

1990-cı illərin əvvəllərində Azərbaycanın zəngin neft ehtiyatlarına malik olması Avropa dövlətlərini bu regiona cəlb etmiş və Avropa enerji şirkətləri neft sənayesinə böyük sərmayələr yatırmışdır. Azərbaycanın neft strategiyasının ən böyük uğuru Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən Azərbaycanın enerji daşıyıcılarını dünya bazarına çıxaran əsas ixrac boru kəmərinin – Bakı–Tbilisi–Ceyhan layihəsinin reallaşması idi. Bu layihədən sonra Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində münasibətlərin hüquqi bazası yaradıldı və əlaqələr strateji tərəfdaşlıq müstəvisinə keçdi.

Regional qaz ixracatçısına çevrilən Azərbaycanın təşəbbüsü ilə Cənub Qaz Dəhlizinin həyata keçirilməsi Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm əhəmiyyətə malik olmuşdur. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərində enerji amili istiqamətində bir sıra yeni prioritetlər formalaşmış, Azərbaycanın bərpa olunan enerji sahəsində mühüm imkanlara malik olması müəyyənləşdirilmişdir. Bu prioritetlərin tədqiqi, münasibətlərin tarixi və siyasi yanaşma baxımından öyrənilməsi elmi yenilik səciyyəsi daşıyır.

Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində münasibətləri zəruri edən amillər. Avropa İttifaqı enerji sahəsində Azərbaycanın əsas ticarət tərəfdaşı hesab olunur. Tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün qarşılıqlı diplomatik səylər göstərilib. Azərbaycan Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Bu münasibətləri zəruri edən bir sıra amillər mövcuddur. Avropa İttifaqına üzv olan dövlətlərin üçdəbir hissəsinin Azərbaycanla strateji əməkdaşlıq əlaqələrində olması İttifaqın Azərbaycana olan marağından və verdiyi əhəmiyyətdən irəli gəlir. Belə ki, Azərbaycanın əlverişli geostrateji mövqeyi və zəngin enerji potensialına malik olması bu münasibətləri şərtləndirən amillər sırasındadır. Eyni zamanda, Avropa İttifaqı ilə münasibətlərin

tərəfdaşlıq səviyyəsinə yüksəlməsi Azərbaycanın da xarici siyasi kursunda üstünlük verdiyi məsələlərdəndir. Buna görə də Avropa İttifaqı və Azərbaycan arasında münasibətlər bərabərhüquqlu tərəfdaşlıq əsasında inkişaf edir və Aİ Azərbaycanın əsas ticarət, o cümlədən ən böyük ixrac tərəfdaşıdır.

Rusiya ilə Ukrayna arasında baş verən müharibədən sonra Avropa İttifaqı öz enerji mənbələrinin şaxələndirilməsini və yanacaq məhsullarında Rusiyadan asılılığına son qoymaq qərarına gəlmişdir. Belə bir şəraitdə də Azərbaycanın regional ticarət ortağı kimi əhəmiyyəti artmışdır. Regionda yaranan yeni vəziyyətə görə Avropa İttifaqı Azərbaycanla əməkdaşlığın istiqamətlərini artırmağa strateji hədəf kimi baxır. Təsadüfi deyil ki, Rusiya – Ukrayna müharibəsi başlayandan etibarən qaz ixracının həcminin artırılması və ya ixraca başlanılması ilə bağlı Azərbaycana 10-dan artıq ölkədən rəsmi müraciətlər olunub [1].

Yeni mərhələdə Avropa İttifaqı və Azərbaycan arasında enerji ilə bağlı dialoqun əsas mövzusu yalnız təbii qaz deyil, həmçinin enerji bazarının digər seqmentləri xüsusilə elektrik enerjisi, hidrogen və yaşıl hidrogendir. Avropada elektrik enerjisinə böyük ehtiyac var. Azərbaycan isə xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir və elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edir. Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, Azərbaycanın bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt, Qarabağ və Zəngəzurda külək, günəş və hidroenerji stansiyalarının potensialı 10 QVt-dan çoxdur. İşğaldan azad edilmiş ərazilərdə günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial var. Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan MR-da müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur [6].

Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycan strateji tərəfdaşdır. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin genişləndirilməsi və təbii qaz ixracının artırılması qitənin Rusiyadan enerji asılılığının azalmasına gətirib çıxara bilər. Eyni zamanda, Rusiya – Ukrayna müharibəsindən sonra Xəzəryanı dövlətlərin Avropa enerji siyasətində rolu artdı. Alternativ təbii qaz tədarükçüsü olaraq Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinin dayanıqlığının təmin edilməsində əsas tərəfdaşa çevrildi və nəticədə Avropa İttifaqına üzv ölkələrin milli təhlükəsizliyində enerji təhlükəsizliyini qorumaq baxımından mühüm rol oynadı.

Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində strateji tərəfdaşa çevrilməsi 2006-cı ilin iyul ayında Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin istismara verilməsi ilə baş verdi [10]. Bu çərçivədə 2006-cı il noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı imzalanmış "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" tərəflər arasında enerji dialoqunun genişləndirilməsi istiqamətində yeni imkanlar yaratdı [3]. Sənəddə enerji sahəsində milli qanunvericiliyin Aİ qanunvericiliyinə uyğunlaşdırılması, Azərbaycan və Xəzər dənizi hövzəsindən enerji tədarükü və tranzit sistemlərinin fiziki və texniki təhlükəsizliyinin gücləndirilməsi, enerjiyə qənaət və iqlim dəyişikliyi hədəfləri ilə əlaqədar enerji tələbatının müfəssəl idarəçilik siyasətinin hazırlanması, texniki əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması öz əksini tapmışdı [3].

Enerji təhlükəsizliyi Avropa İttifaqının əsas və uzunmüddətli strategiyasıdır. Aİ istehlak etdiyi enerjinin 50%-dən çoxunu idxal edir. Enerji idxalından asılılıq xam neft üzrə 90%, təbii qaz üzrə 66% və bərk yanacaq üzrə 42%, həmçinin nüvə yanacağı üzrə 40% təşkil edir [10]. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Cənub Qaz Dəhlizi mühüm əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizi layihəsinin əsas məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi zamanı hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir. "Şahdəniz" layihəsinin tammiqyaslı işlənilməsinin 2-ci mərhələsi olan "Şahdəniz Mərhələ 2" layihəsi Azərbaycan qazını Avropa və Türkiyəyə çatdıran nəhəng bir layihə olmaqla, Cənub Qaz Dəhlizi vasitəsilə Avropa bazarlarını qazla təchiz etməklə, həmin region və ölkələrin enerji təhlükəsizliyini artırır.

2011-ci ildə Avropa Komissiyası və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzaladı. Birgə Bəyanat uzunmüddətli qaz

satış müqavilələri üçün zəmin yaratdı. 2012-ci il iyunun 27-də Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəp Tayyip Ərdoğan arasında TANAP-la bağlı müqavilə imzalandı. Cənub Qaz Dəhlizinin təməli 2014-cü il sentyabrın 20-də qoyuldu. Trans-Anadolu (TANAP) boru kəməri ilə ilk kommersiya qazının Türkiyəyə nəqlinə 2018-ci il iyunun 30-da başlanıldı. 2019-cu il noyabrın 30-da TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi. Azərbaycan təbii qazının TAP vasitəsilə Avropa bazarına tədarükünə 2020-ci il dekabrın 31-də başlanıldı [9].

Cənub Qaz Dəhlizi Gürcüstan və Türkiyə vasitəsilə Azərbaycan qazının Avropaya ötürülməsini hədəfləyən və 3500 kilometr uzunluğunda qaz boru kəməri olan qlobal enerji infrastrukturu layihəsidir. Bu layihə bir-birinə bağlı dörd fərqli seqmentdən ibarət 38 milyard dollara başa gələn böyük bir infrastrukturdur. Bu mənada Cənub Qaz Dəhlizi layihəsi Mərkəzi Asiya və Xəzər bölgəsindən Avropaya təbii qazın nəql edilməsi üçün enerji təhlükəsizliyinin alternativ və etibarlı yollarındandır. Bütün bu amilləri nəzərə alaraq Avropa İttifaqı Azərbaycanla münasibətlərinə xüsusi diqqət yetirir.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun 2019-cu il iyulun 9-da Azərbaycana səfəri bu münasibətin əsas göstəricilərindən biri idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Donald Tuskla görüşdən sonra dedi: "*Cənub Qaz Dəhlizi layihəsi uğurla icra olunur. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçməkdədir*". Donald Tusk da öz növbəsində bəyan etdi: "*Avropa İttifaqı ilə Azərbaycan hər il bir-birinə daha da yaxınlaşır. Münasibətlərimiz daha da güclənir və Cənub Qaz Dəhlizi layihəsi bizi birləşdirir. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, xalqlarımıza fayda gətirməli və Azərbaycanın öz islahat proseslərini və iqtisadi şaxələndirilməsini müşayiət etməlidir*" [10]. Beləliklə, Azərbaycan – Avropa İttifaqı münasibətlərində Cənub Qaz Dəhlizinin genişləndilməsi strateji prioritet kimi müəyyənləşdirilmişdir. 2022-ci il iyulun 18-də "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandı [4; 13]. Bu sənəd Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji münasibətlərə dair yol xəritəsi idi.

Aİ ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq sənədinin icrası 2027-ci ilədək Azərbaycandan Avropaya təbii qaz ixracının 8 mlrd. kub metrdən 20 milyard kubmetrədək artırılması ilə bağlı birgə səylərin gücləndirilməsini zəruri edir [8]. Sənədə əsasən 2023-cü ildən etibarən Azərbaycan 12 mlrd kub metr Avropa İttifaqına qaz ixrac edəcəkdi. Beləliklə, Avropa İttifaqının Rusiyadan enerji asılılığının azaldılmasına Azərbaycan ciddi töhfə verəcəkdi. Sənədə əsasən bərpa olunan enerji sahəsində mühüm potensiala malik olan Azərbaycan bu sahədə də Avropa İttifaqının etibarlı tərəfdaşına çevrilirdi. Memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəliyi nəzərdə tutur, Azərbaycan da qlobal metan öhdəliyinə qoşulmağa dəvət edilirdi [7; 13].

Azərbaycan – Avropa İttifaqı münasibətlərdə yeni prioritetlər: bərpa olunan enerji. Qloballaşan dünyada getdikcə dünya əhalisinin sayının artması, bərpa olunmayan enerji ehtiyatlarının tükənməsi və onların istismarının ekoloji mühitə ciddi ziyan vurmasını nəzərə alaraq bərpa olunan enerji mənbələrindən istifadə Avropa İttifaqının enerji strategiyasında əsas yerlərdən birini tutur. Avropa İttifaqı 2030-cu ilədək külək və günəş kimi müxtəlif bərpa olunan enerji mənbələrinin Aİ-nin ümumi enerji istehlakında payını 42,5 faizə çatdıracağını planlaşdırır. Aİ ölkələrinin ümumi enerji istehlakında bərpa olunan mənbələrin payı 22 faiz təşkil edir [2]. 2019-cu ilin sonunda Aİ bütün avropalılar üçün təmiz enerji paketini qəbul etdi. 2019-cu ildə qəbul edilmiş tədbirlər paketi Avropa Yaşıl Sövdələşmə proqramının məqsədlərinə uyğun olaraq Aİ enerji sisteminin dekarbonizasiyasına töhfə verməyi nəzərdə tutur. Bu paket təmiz iqtisadiyyata keçid və iqlim dəyişikliyinə uyğunlaşma, biomüxtəlifliyin itkisini geri qaytarmaq və çirklənməni azaltmaq üçün yol xəritəsidir [11].

"Həmrəylik halqası" marşrutu, eləcə də Xəzər – Avropa İttifaqı "yaşıl enerji" dəhlizi kimi Avropaya təhlükəsiz və etibarlı mənbədən enerji resurslarını gətirən və şaxələndirən infrastrukturların inkişafı əhatəli enerji təhlükəsizliyi üçün önəmlidir. Avropa İttifaqının REPowerEU planına əsasən, qurum Cənubi Qafqaz qonşuları və tərəfdaşlarının bərpa olunan enerji istehsalının artırılması sahəsində fəaliyyətini dəstəkləyir [12]. Məsələn, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simsonun fikrincə, "Xəzər regionunda Azərbaycanda metan emissiyalarının aşağı olması metan fəaliyyəti ilə bağlı ölkənin lider mövqeyini birgə müdafiə etmək imkanları yaradacaq" [8].

Azərbaycan – Avropa İttifaqı münasibətlərinin inkişafında enerji dialoqunun yaradılması əhəmiyyətli olmuşdur. 2022-ci il fevralın 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurasının Nazirlər Toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Avropanın enerji məsələləri üzrə komissarı Kadri Simson arasında keçirilən görüşdə Aİ ilə Azərbaycan arasında enerji dialoqunun yaradılması haqqında razılıq əldə olundu. Müxtəlif proqramlar çərçivəsində yaşıl enerji, o cümlədən yaşıl hidrogen və ammonyak, enerji səmərəliliyi, enerji sektorunda CCUS texnologiyalarının tətbiqi və metan tullantılarının azaldılması sahələrində Aİ ilə texniki, maliyyə dəstəyi və digər yardımlar üzrə əməkdaşlıq enerji dialoqunun əsas müzakirə mövzuları olmuşdur [8].

2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandı. 2023-cü il fevralın 7-də Prezident İlham Əliyev Sazişin təsdiq edilməsi barədə Fərman imzaladı [5]. 2023-cü il iyunun 1-də Bakı Enerji Həftəsi çərçivəsində "Azərbaycan Respublikası, Gürcüstan, Macarıstan və Rumıniya Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə nazirlərin üçüncü iclası keçirildi [6]. Tərəflər qlobal istiləşmə ilə mübarizədə və iqlim dəyişikliklərinin qarşısının alınmasında yaşıl və təmiz enerjinin əhəmiyyətini vurğulayaraq, enerji sistemlərinin təhlükəsizliyinin və təchizatın sabitliyinin artırılması məqsədilə bərpa olunan enerji, enerji səmərəliliyi və yaşıl hidrogen sahələrində qarşılıqlı əməkdaşlığı təşviq edirdi. Eyni zamanda Azərbaycanın və Gürcüstanın bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin Avropaya tranzit ötürülməsi və təchizatında, enerji səmərəliliyi və enerjiyə qənaət məsələləri üzrə yeni texnologiyaların tətbiqi və xidmətlərin formalaşdırılması istiqamətində əməkdaşlıq dəstəklənirdi. Tərəflər bərpa olunan enerji və yaşıl hidrogenin istehsalı, nəqli və ticarəti sahələrində fəaliyyət imkanlarını müəyyən edir, səlahiyyətli orqanlarını və investorlarını bu sahələrdə layihələrin dəstəklənməsi və inkişafı üçün birlikdə fəaliyyət göstərməyə təşviq edirdilər [5]. Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində günəş və külək enerjisinin potensialı 9200 meqavatdır [6].

Nəticə. Tədqiqatdan aydın olur ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsas tərkib hissələrindən biridir. Avropa İttifaqı üçün enerji təhlükəsizliyi ilk növbədə davamlı və sabit enerji ilə təmin olunmaq, enerji kəmərlərinin şaxələndirilməsi və Rusiyadan enerji asılılığının aradan qaldırılmasıdır. Bu baxımdan Avropa İttifaqı Xəzər regionu, xüsusilə Azərbaycanla enerji sahəsində tərəfdaşlıq münasibətlərinə önəm verir.

Tədqiqat göstərir ki, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilmiş Cənub Qaz Dəhlizi Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bu layihə ilə gələcəkdə Azərbaycan qazının Avropaya ixrac həcminin artırılmasının mühüm perspektivləri vardır.

Bərpa olunan enerji sahəsində əlaqələrin inkişafı Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji əməkdaşlığın mahiyyətini təşkil edir. Azərbaycanın Xəzər dənizində və quruda külək və günəş enerjisi sahəsində mühüm potensiala malik olması Avropa İttifaqı ilə bərpa olunan enerji sahəsində əməkdaşlığın müsbət perspektivlərindən xəbər verir.

ƏDƏBİYYAT

1. Avropa İttifaqı Azərbaycanla enerji əməkdaşlığının gücləndirilməsini strateji məqsəd hesab edir: [Elektron resurs] / – URL: https://azertag.az/xeber/avropa_ittifaqi_azerbaycanla_enerji_emekdasliginin_guclendirilmesini_strateji_meqsed_hesab_edir-2279213 [09.04.2025].
2. Avropa İttifaqı 2030-cu il üçün bərpa olunan enerjinin payı 42,5 faizə çatdırılacaq: [Elektron resurs] / – URL: https://renewables.az/news/avropa-ittifaqi-2030-cu-il-ucun-berpa-olunan-enerjinin-payi-425-faize-catdirilacaq-2023-03-31-124841 [09.04.2025].
3. Azərbaycan – Avropa İttifaqı: [Elektron resurs] / – URL: https://brussels.mfa.gov.az/az/content/38/azerbaycan-avropa-ittifaqi [09.04.2025].
4. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb: [Elektron resurs] / – URL: https://president.az/az/articles/view/56689 [09.04.2025].

5. Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş: [Elektron resurs] / – URL: https://e-qanun.az/framework/53431 [09.04.2025].
6. Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə: [Elektron resurs] / – URL: https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/ azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade [09.04.2025].
7. Bayramov, V. Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı uğurla inkişaf edir: [Elektron resurs] / – URL: http://www.anl.az/down/meqale/xalqqazeti/2022/ iyul/806991(meqale).pdf [09.04.2025].
8. Brüsseldə Azərbaycan-Avropa İttifaqı Enerji Dialoqunun növbəti görüşü keçirilib: [Elektron resurs] / – URL: https://minenergy.gov.az/az/xeberler-arxivi/ brusselde-azerbaycan-avropa-ittifaqi-enerji-dialoqunun-novbeti-gorusu-kecirilib [09.04.2025].
9. Cənub Qaz Dəhlizi: [Elektron resurs] / – URL: https://minenergy.gov.az/ az/layiheler/cenub-qaz-dehlizi_2196. [09.04.2025].
10. Həsənova, Ş. Avropa İttifaqı və Azərbaycan Respublikası münasibətlərində enerji amilinin yeri və rolu: [Elektron resurs] / – URL: https://geostrategiya.az/ news.php?id=106 [09.04.2025].
11. Clean energy for all Europeans package: [Electronic resource] / – URL: https://energy.ec.europa.eu/topics/energy-strategy/clean-energy-all-europeans-package_en [09.04.2025].
12. EU strategy: [Electronic resource] / – URL: https://www.eera-set.eu/about-us/eera-in-context/eu-2050-strategy.html [09.04.2025].
13. Memorandum of understanding on a strategic partnership between the European Union and The Republic of Azerbaijan in the field of energy: [Electronic resource] / – URL: https://energy.ec.europa.eu/topics/energy-strategy/clean-energy-all-europeans-package_en [09.04.2025].

КАМАЛА ГАСАНОВА
Преподаватель кафедры международных отношений Азербайджанского университета языков, Доктор исторических наук

ЭНЕРГЕТИЧЕСКИЙ ФАКТОР В ОТНОШЕНИЯХ ЕВРОПЕЙСКОГО СОЮЗА И АЗЕРБАЙДЖАНА

В статье рассмотрена роль Азербайджана в обеспечении энергетической безопасности Европейского Союза, сложившиеся в этом направлении отношения стратегического партнерства. Автор проанализировал условия, необходимые для отношений между Европейским Союзом и Азербайджаном в сфере энергетики, рассмотрел важность реализации Южного газового коридора в обеспечении региональной энергетической безопасности, а также перспективы двусторонних отношений в сфере возобновляемой энергетики и зеленой энергии.

Ключевые слова: Европейский Союз, Азербайджан, энергетическая безопасность, возобновляемая энергетика, Южный газовый коридор, стратегическое партнерство.

KAMALA HASANOVA
Lecturer at the Department of International Relations, Azerbaijan University of Languages, PhD in History

THE ENERGY FACTOR IN THE EUROPEAN UNION – AZERBAIJAN RELATIONS

In the article, the role of Azerbaijan in ensuring the energy security of the European Union, and the strategic partnership relations emerging in this direction are examined. The author analyzed the conditions necessary for relations between the European Union and Azerbaijan in the field of energy,

the importance of the implementation of the Southern Gas Corridor in ensuring regional energy security, and the perspectives of bilateral relations in the field of renewable energy and green energy were examined.

Keywords: European Union, Azerbaijan, energy security, renewable energy, Southern Gas Corridor, strategic partnership.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Emil Qasımov, t.ü.f.d. Məmmədağa Baxışov.